**İsazadə E.E.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.59.87-113**

# Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmək haqqında

**Xülasə**: Azərbaycan Respublikasının qüvvədə olan CM-də cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqinin formal şərti kimi məhkəmə tərəfindən təyin edilmiş cəzanın cinayətin kateqoriyasından asılı olaraq məhkum tərəfindən çəkilməsi müəyyən edilmişdir. Qüvvədən düşmüş CM-dən fərqli olaraq, hazırda qüvvədə olan CM-də cinayətin ağırlıq dərəcəsi, hansı kateqoriyaya aid olması, məhkumun şəxsiyyəti cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqində məhdudiyyətlər kimi müəyyən edilməmişdir.

Qanunda məhkum tərəfindən cinayətin kateqoriyasından asılı olaraq təyin edilmiş cəzanın müəyyən hissəsinin çəkilməsinin şərt kimi nəzərdə tutulması həm cinayətə görə məsuliyyətin labüdlüyünün təmin edilməsi, həm də cəzanın məqsədinə nail olmaq niyyəti ilə müəyyən edilmişdir. Bununla sosial ədalətin bərpasına, məhkumun islah edilməsinə, cinayət hüququnun preventiv funksiyasının həyata keçirilməsinə nail olmaq məqsədi güdülür.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə üçün əsas meyar kimi cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzumun olmaması çıxış etməlidir. Məhkumun islah olunması barədə məhkəmənin gəldiyi nəticə, onun haqqında şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi üçün zəruri müddətin tamamlandığı ərəfədə mövcud olan məlumatlara yox, cəzanın çəkilən bütün müddəti ərzində onu xarakterizə edən məlumatlara əsaslanmalıdır. Ona görə də məqalədə respublikamızın CM-dən 20 oktyabr 2017-ci il tarixli qanun ilə daxil edilmiş 76.4-1-ci maddənin çıxarılması təklif olunur.

[♦] **İsazadə Elxan Eyvaz oğlu** - Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasının doktorantı (Azərbaycan). E-mail: elxannnisazade@gmail.com

Ömürlük azadlıqdan məhrum etmə cəzasından şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı ziddiyətli situasiya yaranır. Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun bu cəza növünün müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsindən sonra barəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinin mümkünlüyü və məhkumun azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini çəkdikdən sonra məhkəmənin onun bu cəzanı çəkməsinə daha lüzumun olmadığı qənaətinə gəlməsi əsası ilə birbaşa cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilməsi məsələləri müzakirə edilir və CM-nin 76-cı maddəsinin bu yöndə təkmilləşdirilməsinə dair təklif irəli sürülür.

**Açar sözlər**: cəza; azadlıqdan məhrum etmə; ömürlük azadlıqdan məhrum etmə; vaxtından əvvəl azad etmə; məhkumun islah olunması.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyi tarixinə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu çoxdan məlumdur və respublikamızın həm əvvəlki, həm də hazırda qüvvədə olan cinayət qanunu üzrə bu sahədə kifayət qədər məhkəmə təcrübəsi formalaşmışdır. Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 76-cı maddəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə əvvəlki CM-dən fərqli, yeni məzmunda müəyyən edilmişdir. Bu maddəyə əsasən, məhkəmə islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, onu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Bu halda şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumu 08 oktyabr 2010-cu ildə qəbul etdiyi “Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında” 02 saylı

Qərarının 2-ci bəndində məhkəmələrə cinayət və cinayət prosessual qanunvericiliyində törədilmiş cinayət əməllərinin xarakteri və ictimai təhlükəlilik dərəcəsinin, cinayət nəticəsində vurulmuş ziyanın ödənilməməsinin, əvvəllər məhkum olunmasının, təqsirini etiraf etməməsinin və sair bu kimi halların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməyə maneə kimi müəyyən edilmədiyini nəzərə almaları tövsiyə olunmuşdur [4].

Yenə də qüvvədən düşmüş 1960-cı il CM-dən fərqli olaraq, hazırda qüvvədə olan CM-də şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün məhkumun cəza çəkdiyi dövrdə əməyə vicdanlı münasibəti (əməyə vicdanlı (namuslu) münasibət bəsləmək məhkumun könüllü surətdə əmək öhdəliklərini, istehsalat normalarını yerinə yetirməsində, ixtisas dərəcəsini artırmasında, yeni peşələrə nail olmasında və s. hallarda özünü göstərə bilməsi kimi şərh olunmuşdur [3, s. 219] və nümunəvi davranışı ilə özünün islah olunduğunu subuta yetirməsi deyil, məhkəmənin şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gəlməsi əsas olaraq götürülmüşdür. Ümumiyyətlə, 1960-cı il CM-də şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün onun nümunəvi davranışı və əməyə namuslu münasibəti ilə islah olunması sübuta yetməsi və təyin edilmiş cəzanın qanunda göstərilən hissəsini çəkməsi tələb olunmuşdursa, qüvvədə olan CM-də məhkəmənin şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gəlməsi və təyin edilmiş cəzanın qanunda göstərilən hissəsini çəkməsi tələb olunur. Yəni, hazırda qüvvədə olan CM-nə əsasən, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi üçün məhkum qanunda göstərilən həddə islah olunma səviyyəsinə çatmalı, üstəlik, təyin olunmuş cəzanın qanunda göstərilən həddini çəkmiş olmalıdır. Bəzi müəlliflər göstərdiyimiz birinci amili cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin əsası, ikinci amili isə şərti kimi qiymətləndirirlər [9, s. 18]. Fikrimizcə, bu iki cəhəti bir-birindən ayırmaq olmaz və onların hər birini eyni zamanda əsas və şərt kimi qiymətləndirmək lazımdır.

Ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, məhkəmənin bu qərarı hər bir halda cəzanın çəkildiyi dövrdə məhkumun islah olunmasını təsdiq edən sabit davranışına əsaslanmalıdır. Lakin qanunda məhkumun islah olunub olunmamasına qiymət verilməsinin meyarı müəyyən edilməmişdir. Formalaşmış təcrübəyə və qanunun ümumi müddəalarına əsasən, məhkəmə şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrkən məhkumun şəxsiyyətini, cəzanı çəkdiyi dövrdə davranışını və s. mühüm halları əsas götürür. Bununla belə, qanunda cəzadan azad etmənin bu növünün tətbiqi üçün məhkumun tam şəkildə islah olunması tələbinin müəyyən edilmədiyini nəzərə almaq lazımdır [2, s. 178].

CM-nin 76.3-cü maddəsinə əsasən, məhkuma cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ona təyin olunmuş cəzanın aşağıdakı hissəsini həqiqətən çəkdikdən sonra tətbiq edilə bilər:

1) böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə - təyin edilmiş cəza müddətinin ən azı yarısını;

2) ağır cinayət törətməyə görə - təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsini;

3) xüsusilə ağır cinayət törətməyə görə - təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini,

4) habelə əvvəllər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs, əgər şərti olaraq vaxtından əvvəl azad etmə bu Məcəllənin 76.6-cı maddəsində nəzərdə tutulmuş əsaslara görə ləğv edilmişdirsə, yaxud əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxs cinayətlərin residivinə görə yenidən azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmişdirsə - təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli 137-IVQD nömrəli Qanunu ilə CM-də ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsi çəkildikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə icazə verilməsini nəzərdə tutan 76.3.2-ci

maddə çıxarılmış, ağır və xüsusilə ağır cinayətlərə münasibətdə cəzadan azad etmənin bu növünün tətbiqi üçün cəzanın çəkilməsi müddətləri eyniləşdirilmişdir. Lakin 20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Qanun ilə CM-nə yeni 76.3.1-1-ci maddə əlavə edilmiş və yenidən ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsinin çəkilməsi şərt kimi müəyyən edilmişdir. Biz qanuna edilmiş bu dəyişikliyi düzgün sayırıq və hesab edirik ki, həm ağır, həm də xüsusilə ağır cinayətləri törətməyə görə məhkum olunmuş şəxslərə münasibətdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi üçün təyin edilmiş cəza müddətinin çəkilmiş hissəsinin ən azı dörddə üç hissəsinin müəyyən edilməsi mövqeyi, başqa sözlə, ağır cinayətlər ilə xüsusilə ağır cinayətlər arasında bu baxımdan heç bir fərqin qoyulmaması mövqeyi əsassız olmuşdur.

CM-də cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi üçün cəzanın çəkilməsinin formal baxımdan müəyyən olunmuş müddətləri təkcə azadlıqdan məhrum etmə cəzasına münasibətdə deyil, həmçinin cəzanın islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama kimi növlərinə aiddir. Respublika Ali Məhkəməsi Plenumunun yuxarıda adını qeyd etdiyimiz qərarında məhkəmələrə izah olunmuşdur ki, bu xarakterli müraciətlərə baxarkən məhkumun cəzasının qanunla müəyyən edilmiş müddətini çəkməməsinin müəyyən olunması həmin müraciətin rədd olunmasına şərtsiz əsas verir [4].

Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə münasibətdə bu hüquq institutunun tətbiqi üçün məhkum tərəfindən təyin edilmiş cəza müddətinin çəkilmiş hissəsinin altı aydan az olmaması şərt kimi müəyyən edilmişdir. Azərbaycan Respublikası CM-nin kommentariyası müəlliflərinin fikrincə, qanunun bu göstərişi ancaq böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə təyin edilən azadlıqdan məhrum etmə növündə cəza ilə bağlı ola bilər [2, s. 178-179]. Minimum altı ay müddətinin xüsusi olaraq müəyyən edilməsi nə ilə bağlıdır? Azadlıqdan məhrum etmə cəzası dünyanın bütün ölkələrinin cinayət qanunlarında

nəzərdə tutulan cəza növlərindən biridir. Azərbaycan Respublikası CM-nin 55.2-ci maddəsinə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası üç aydan iyirmi ilədək müddətə müəyyən edilmişdir. Müəyyən cəza növləri (ictimai işlər, islah işləri və s.) azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə, bu cəza növünün müddəti üç aydan az, cinayətlərin və ya hökmlərin məcmusu üzrə cəza təyini zamanı isə bu cəza növünün müddəti iyirmi ildən çox ola bilər. Mövcud məhkəmə təcrübəsi bu cəzaya məruz qalan şəxslərin ildən ilə artdığını göstərir. Belə ki, ötən əsrin 60-cı illərində bu cəza növünə məhkum olunanların faizi 28-32%, 1971-1977-ci illərdə 41-45%, 1980-1997-ci illərdə 50-54% olmuşdur. Lakin buna rəğmən, 1961-1970-ci illərdə cinayətkarlığın illik ümumi səviyəsi 13600 hadisədən ibarət olmuşdursa, 1971-1980-ci illərdə bu rəqəm 14650, 1981-1990-cı illərdə isə 15850 olmuşdur. Beləliklə, ədəbiyyatda düzgün qeyd olunduğu kimi, azadlıqdan məhrum etmə cəzasından geniş istifadə edilməklə cinayətkarlığın azaldılmasına nail olmaq məqsədinə nail olunmamışdır [6, s. 261-262].

X.C.Ələkbərov MDB-yə daxil olan bəzi ölkələrdə hazırda cinayət törətmiş şəxslərin 55%-nin real azadlıqdan məhrum etmə cəzasına məruz qaldığını, halbuki Qərbi Avropada bu rəqəmin 8-15%, Yaponiyada 3-5% olduğunu göstərilmişdir. 2018-ci ildə Azərbaycanda 26381 cinayət törədilmişdir ki, bunun 89,7%-ni böyük ictimai təhlükə törətməyən və ya az ağır, yalnız 10,3%-ni ağır və xüsusilə ağır cinayətlər təşkil etmişdir. Azərbaycan 48 Avropa ölkəsi arasında əhalinin hər 100 min nəfərinə düşən azadlıqdan məhrum etmə cəzasının sayına görə Rusiya və Gürcüstandan sonra üçüncü yerdə dayanır. Halbuki ölkəmizdə hər il qeydə alınan cinayətlərin quruluşunda ağır və xüsusilə ağır cinayətlərin ümumi çəkisi 10-14%-i aşmır, zorakı və residiv cinayətkarlıq isə sosial baxımdan dözülən səviyyədədir [8, s. 12-13]. Bu baxımdan ədəbiyyatda ifadə olunmuş bu mövqe ilə razılaşırıq ki, cinayətkarlığın quruluşunda ağır və xüsusilə ağır cinayətlərin ümumi çəkisinin 14%-i aşmadığı təqdirdə cinayət repressiyasının bu şəkildə həyata keçirilməsi

cinayət-hüquqi siyasətin baza prinsiplərinə və cəza təyininin əxlaqi başlanğıclarına cavab vermir [5, s. 15].

Bununla belə, azadlıqdan məhrum etmə cəzasının bütün dövrlərdə ən populyar cəza növlərindən biri olduğunu da qəbul etmək lazımdır. Bu cəza tədbiri o halda təyin edilir ki, məhkəmə törədilən cinayətin xarakterini, təqsirkarın şəxsiyyətini nəzərə alaraq, cəzanın məqsədinə nail olmaq üçün onun azadlıqda qalmasını məqbul hesab etmir və məhkumu cəmiyyətdən təcrid etməklə, xüsusi islahedici tədbirlər kompleksini tətbiq etməklə islah olunmasını mümkün hesab edir [7, s. 190]. Lakin bu cəza tədbirinin qısa müddətə tətbiqi onun səmərəliliyini xeyli dərəcədə azaldır, insanların gözündə adiləşdirir. Prof. İ.M.Rəhimov bu baxımdan düzgün olaraq belə nəticəyə gəlmişdir ki, perspektivdə iqtisadi və ehtiyatsızlıq üzündən, eləcə də narkotiklər ilə bağlı törədilən və zorakılıqla müşayiət olunmayan cinayətləri törətmiş şəxslərin cəzaçəkmə müəssislərində təcrid edilməsi zərurəti aradan qalxacaqdır. Lakin residivistlər və zorakılıqla müşayiət edilən ağır cinayətləri törədənlər üçün azadlıqdan məhrum etmə cəzası gələcəkdə də ən əsas cəza tədbiri kimi olacaqdır. Cəzanın gələcəyi, qısa müddətli azadlıqdan məhrum etmənin müsbət nəticələri müşahidə olunmadığından, ondan imtina edilməsi ilə müşayiət ediləcəkdir [6, s. 263-264]. Digər tərəfdən, cəzanın çəkilməsi müddəti altı aydan az olduqda, məhkumun həqiqətən qəti şəkildə islah yoluna qədəm qoyduğunu praktik olaraq müəyyən etmək mümkün olmur. Bundan az müddət cəzanın məqsədinə nail olmağa imkan vermir. Bu baxımdan azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə münasibətdə bu hüquq institutunun tətbiqi üçün məhkum tərəfindən təyin edilmiş cəza müddətinin çəkilmiş hissəsinin altı aydan az olmamasının şərt kimi müəyyən edilməsini düzgün mövqe hesab edirik.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər. 20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Qanun ilə respublikamızın CM-nə aşağıdakı məzmunda yeni 76.4-1-

ci maddə daxil edilmişdir: "Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin bu Məcəllənin 57.3-cü maddəsində nəzərdə tutulmuş qaydada cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı onun cəza çəkdiyi dövrün son beş ili ərzində cəzanın çəkilməsi qaydalarına əməl etməsi halları nəzərə alınır". Azadlıqdan məhrum etmənin bu növü respublikamızda ölüm cəzasının ləğv edilməsi ilə əlaqədar 10 fevral 1998-ci il tarixli qanun ilə CM-nə daxil edilmişdir. Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan CM-də də ömürlük azadlıqdan məhrum etmə cəzanın sisteminə daxil edilmişdir. CM-nin 57.1-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir. 20 oktyabr 2017-ci il tarixli Qanun ilə CM-nə daxil edilmiş 76.4-1-ci maddə ilə razılaşmadığımızı qeyd etmək istəyirik. Rusiya Federasiyasının 08 yanvar 1997-ci il tarixli Cəzaların İcrası Məcəlləsinin 175-ci maddəsinin ilk redaksiyasında da müəyyən edilmişdi ki, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxs cəzaçəkmə müəssisəsində son üç il ərzində müəyyən olunmuş qaydaları qərəzli surətdə pozmadığı təqdirdə, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmək barədə müraciət etmək hüququna malikdir. Lakin sonradan həmin müddəa CİM-dən çıxarıldı [11].

Fikrimizcə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə üçün əsas meyar kimi cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzumun olmaması çıxış etməlidir. Bunun isə, xüsusən, ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə münasibətdə hər hansı müddət dövrü ilə (cəza çəkdiyi dövrün son beş ili ilə - İ.E.) məhdudlaşdırılması düzgün sayıla bilməz. Bu baxımdan, vaxtı ilə keçmiş SSRİ Ali Məhkəməsi Plenumunun "Məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz olunmasına dair məhkəmə təcrübəsi haqqında" 19 oktyabr 1971-ci il tarixli qərarında göstərilən aşağıdakı mövqeyi

düzgün hesab edirik ki, məhkumun islah olunması barədə məhkəmənin gəldiyi nəticə, onun haqqında şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi üçün zəruri müddətin tamamlandığı ərəfədə mövcud olan məlumatlara yox, cəzanın çəkilən bütün müddəti ərzində onu xarakterizə edən məlumatlara əsaslanmalıdır [10, s. 78]. Odur ki, CM-nin 76.4-1-ci maddəsinin Məcəllədən çıxarılmasını təklif edirik.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs barəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi zamanı yarana bilən digər bir anlaşılmaz situasiyanı da qeyd etmək istəyirik. CM-nin 57.3-cü maddəsinə əsasən, məhkəmə ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəkdiyini, həmçinin onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlük azadlıqdan məhrum etmə cəza növünü müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli 908-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Cəzaların İcrası Məcəlləsinin 171-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs Cinayət Məcəlləsi ilə müəyyən olunmuş müddət keçdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə haqqında məhkəməyə ərizə ilə müraciət edə bilər. Onun bu barədə ərizəsi məhkəmə tərəfindən rədd edildikdə, təkrar ərizəyə məhkəmənin rədd haqqında qərarının qəbul edildiyi gündən ən azı bir il sonra (12 oktyabr 2018-ci il tarixli 1281-VQD №li Qanununa qədər bu müddət altı ay sonra müəyyən edilmişdi – İ.E.) baxıla bilər. Eyni məzmunlu müddəa Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 513.2-ci maddəsində müəyyən edilmişdir.

Ayrı-ayrı ölkələrdə ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün müəyyən olunmuş müddətlər fərqlidir. Respublikamızda məhkumun azadlıqdan məhrum

etmə cəzasının ən azı iyirmi beş ilini həqiqətən çəkməsi müəyyən olunmuşdur. Polşa Respublikasının 6 iyun 1997-ci il tarixli CM-nin 78-cü maddəsinin 3§-na əsasən, 25 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs təyin edilmiş cəzanın ən azı 15 ilini, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs isə ən azı 25 ilini həqiqətən çəkdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər. Bu halda məhkəmə həmin şəxs üzərində 10 il sınaq müddəti təyin edir [13]. Gürcüstan Respublikasının 22 iyul 1999-cu il tarixli CM-nin 72-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs təyin edilmiş cəzanın ən azı 20 ilini [12], Almaniya Federativ Respublikasının 15 may 1871-ci il tarixli CM-nin 57§-na əsasən ən azı 15 ilini [14] çəkdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər.

Qanuna əsasən, ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrum etmə cəzasının iyirmi beş ilini həqiqətən çəkdikdən sonra müvafiq şərtlər daxilində (bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətməməsi və məhkəmənin məhkumun həmin cəzanı çəkməsinə daha lüzumun olmadığı qənaətinə gəlməsi) iki imkanı əldə etmək şansı yaranır: 1) ömürlük azadlıqdan məhrum etmə cəza növünün müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi (CM-nin 57.4-cü maddəsinə əsasən, bu halda ömürlük azadlıqdan məhrum etmə cəza növü on ilədək müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilə bilər); 2) ömürlük azadlıqdan məhrum etmə cəzasından şərti olaraq vaxtından əvvəl azad edilməsi.

Sual olunur: ömürlük azadlıqdan məhrum etmə cəza növünün on ilədək müddətə azadlıqdan məhrum etmə ilə əvəz edildiyi məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı qanunla müəyyən edilmiş müddətlərin hesablanması üçün hansı müddət əsas götürülür? Fikrimizi bir kazus ilə aydınlaşdıraq. A. barəsində ömürlük azadlıqdan məhrum etmə cəzası təyin edilmişdir. O, bu cəza növünün 25 ilini çəkdikdən sonra məhkəmə həmin cəza növünü 8 il müddətinə azadlıqdan məhrum etmə ilə əvəz etmişdir. Törətdiyi

cinayət, şübhəsiz, xüsusilə ağır cinayət olmuşdur. O, təyin edilmiş hansı cəza müddətinin dörddə üç hissəsini çəkdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər? Fikrimizcə, bu suala Ali Məhkəmənin Plenumunun yuxarıda adını qeyd etdiyimiz qərarında çox düzgün şəkildə cavab verilmişdir. Belə ki, qərarın 6-cı bəndində göstərilir ki, şəxsə təyin edilmiş cəza əfvetmə və ya amnistiya qaydasında, habelə digər əsaslarla azaldılarsa, onun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması və ya cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi zamanı qanunla müəyyən edilmiş müddətlərin hesablanması üçün məhkəmənin təyin etdiyi cəza deyil, faktiki olaraq əfvetmə, amnistiya və ya başqa əsaslara görə azaldılmış cəza müddəti nəzərə alınmaqla hesablanmalıdır [4]. Deməli, məhkəmə A. barəsində son olaraq təyin edilmiş 8 il müddətinə azadlıqdan məhrum etmə cəzasının dörddə üç hissəsi çəkildikdən sonra, onu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. A.-nın 8 il müddətinə olan azadlıqdan məhrum etmə cəzasının real olaraq çəkilməmiş hissəsi onun üçün sınaq müddəti olacaqdır və o, bu müddət ərzində məhkəmə tərəfindən üzərinə qoyulmuş vəzifələrin icrasına görə məsul olacaqdır.

Beləliklə, ömürlük azadlıqdan məhrum etmə cəza növünün müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi zamanı cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqində hər hansı problem yaranmır. Problem ikinci situasiyada - ömürlük azadlıqdan məhrum etmə cəzasından şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı yaranır. CM-nin 57-ci maddəsinin məzmunundan belə başa düşülür ki, ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkum azadlıqdan məhrum etmə cəzasının iyirmi beş ilini həqiqətən çəkdikdən sonra müvafiq şərtlər daxilində ömürlük azadlıqdan məhrum etmə cəzasından birbaşa, yəni bu cəza bövü müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilmədən şərti olaraq vaxtından əvvəl azad edilə bilər. Məntiqi baxımdan iki sual yaranır: 1) şəxs bu zaman hansı cəzadan (ömürlük, yoxsa müəyyən müddətə azadlıqdan

məhrum etmə cəzasından) şərti olaraq vaxtından əvvəl azad edilir; 2) məhkumun cəzasının çəkilməmiş hissəsi hansı müddət olacaqdır? Axı məhkəmə məhkumun üzərinə cəzasının çəkilməmiş hissəsi ərizində müəyyən vəzifələrin icrasını qoyur. Burada isə həmin müddət yoxdur, lakin şəxs cəzasının qalan hissəsini çəkməsinə lüzumun olmaması əsası ilə şərti olaraq vaxtından əvvəl cəzadan azad edilir. Belə çıxır ki, şəxs bu zaman cəzadan şərti deyil, tam olaraq azd edilir.

Gördüyümüz kimi, burada biz ziddiyətli situasiya ilə qarşlaşırıq. Vəziyyətdən iki cür çıxış yolunun olduğunu düşünürük: 1) CM-nin 57.3-cü maddəsində dəyişiklik etmək, yəni maddədə ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun bu cəza növünün müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsindən sonra barəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinin mümkünlüyünün müəyyən edilməsi; 2) ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəkdikdən sonra məhkəmənin onun həmin cəzanı çəkməsinə daha lüzumun olmadığı qənaətinə gəlməsi əsası ilə birbaşa cəzadan şərti olaraq vaxtından əvvəl azad etməsi zamanı barəsində sınaq müddətini (bu müddətin CM-nin 57.4-cü maddəsinə uyğun olaraq 10 il müəyyən edilməsi məqsədəuyğun olar) təyin etməsi və CM-nin 76-cı maddəsində bu mövqeyi əks etdirən müddəanın daxil edilməsi. Biz daha çox ikinci variantı üstün tuturuq, çünki burada islah yoluna həqiqətən qədəm qoymuş ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs üçün fərqli imkan və daha yumşaq şərt müəyyən edilmiş olur.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Hüquq ədəbiyyatı, Bakı, 2014.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / h.e.d., prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Hüquq Yayın Evi, 2014.

3. Azərbaycan SSR Cinayət Məcəlləsinin elmi-praktiki kommentariyası (ümumi hissə). Azərnəşr, 1978.

4. “Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 08 oktyabr 2010-cu il tarixli 02 saylı Qərarı [Elektron mənbə]: /http://supremecourt. gov.az/post/ view/169

5. Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı, “Şərq-Qərb” Nəşriyyatı, 2016.

6. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2014.

7. Səməndərov F.Y. Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Dərs vəsaiti. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2009.

8. Аликперов Х.Д. Компьютерная программа определения меры наказания. Материалы доклада, сделанного на международной презентации «Электронных весов правосудия» в Баку 14 мая 2019 г.

9. Куцева Э.Ф. Исполнение приговора. М., 1960.

10. Сборник Постановлений Пленумов Верховных Судов СССР и РСФСР (Российской Федерации) по уголовным делам. М.: СПАРК, 1995.

11. Уголовно-исполнительный кодекс Российской Федерации от 08.01.1997 N 1-ФЗ (ред. от 27.12.2018) (с изм. и доп., вступ. в силу с 08.01.2019) / [Электронный ресурс]. Режим доступа: http://www.consultant.ru/ cons/cgi/online.cgi?req=doc&base=LAW &n=315084&fld=134&dst =101007,0& rnd=0.5445247192676383#0228168663238083

12. Уголовный кодекс Грузии. – СПб.: Изд-во «Юридический центр Пресс», 2002.

13. Уголовный кодекс Республики Польша / Науч. ред. канд. юрид. наук, доц. А.И.Лукашов, докт. юрид. наук, проф. Н.Ф. Кузнецова; вступ. статья канд. юрид. наук, доц. А.И. Лукашова, канд. юрид. наук, проф. Э.А. Саркисовой; перевод с польского Д.А. Барилович. СПб.: Издательство «Юридический центр Пресс», 2001.

14. Уголовный кодекс ФРГ / Пер. с нем. – М.: ИКД «Зерцало-М», 2001.